# Media-analitika və informasiya təhlükəsizliyi

Gülnar Əliyeva

*AMEA İnformasiya Texnologiyaları İnstitutu*

alieva_baku@hotmail.com

*Xülasə*— **Məqalədə medianın cəmiyyətə təsiri, media sahəsində informasiya təhlükəsizliyi problemləri araşdırılmışdır. Medianın uşaq və gənclərə müsbət və mənfi təsirləri göstərilmişdir.**

***Açar sözlər***— ***media; media analitika; informasiya təhlükəsizliyi; KİV-in funksiyaları***

## I. GİRİŞ

Kütləvi informasiya vasitələri (KİV) insan şəxsiyyətinin və şüurunun formalaşmasında güclü psixoloji təsir gücünə malikdir. Daim dəyişən dünyagörüşünə və hələ tam formalaşmayan şüura malik gənc auditoriya bu təsirə daha çox məruz qalır. İlk növbədə, KİV cəmiyyətdə gedən informasiya prosesinin müxtəlif mərhələləri və tərəflərinə təsir göstərir. Müasir dünyada informasiya axını o qədər ziddiyyətli və müxtəlifdir ki, onu müstəqil şəkildə anlamaq asan deyil. Müasir dövrdə media sahəsində informasiya təhlükəsizliyinin təmin olunması cəmiyyəti, o cümlədən dünya jurnalistikasını narahat edən problemdir.

Media-analitika KİV materiallarının say və keyfiyyətcə analizini təqdim edir. Buraya KİV-də regionun obrazının təhlili – daha aktual mövzuların seçilməsi, neqativ və ya pozitiv informasiya mənbələrinin monitorinqi daxildir. Media-analitikanın ilkin mərhələlərindən biri KİV-də monitorinqin aparılmasıdır. KİV-in monitorinqi nəşr olunan informasiyanın peşəkar şəkildə toplanması və analizidir. İnformasiyanın sistemli şəkildə toplanması verilmiş mövzu üzrə aktual informasiyanı əldə etməyə, regionun KİV-də işıqlandırılma intensivliyini qiymətləndirməyə, informasiya ötürən kanallar haqqında təsəvvürə malik olmağa imkan verir. Medianın analizi onun hazırkı durumunu, cəmiyyətin inkişafına, insanların şüuruna, milli-mənəvi dəyərlərin qorunmasına təsirini qiymətləndirməyə, insanların media savadını müəyyən etməyə kömək edir [1].

## II. MEDİA SAHƏSİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

İnformasiya təhlükəsizliyi təkcə texnoloji vasitələrlə təmin oluna bilməz. Mütəxəssislərin fikrincə, informasiya təhlükəsizliyində insan faktoru daha əhəmiyyətlidir və praktikada bu son dövrlər ön plana çıxır. İnformasiya təhlükəsizliyi informasiyanın təkcə konfidensiallığı, tamlığı və əlyetərliliyinin təmin edilməsi deyil. Həm də informasiyadan istifadə edən şəxslərin, sosial qrupların, qərar qəbul edən şəxslərin psixoloji durumu, cəmiyyətin mənəvi dəyərlərinin qorunması, o cümlədən ən dinamik və müdafiəsiz qrupların zərərli informasiya təsirlərindən mühafizə olunması ilə xarakterizə olunur. İnformasiya təhlükəsizliyinin əsas aspektlərindən biri də televiziya, İnternet və digər media vasitələrinin təqdim etdiyi informasiyanın obyektivliyi və etibarlılığını təmin etməkdir. Yalan informasiya manipulyasiya üçün əlverişli şərait yaratdığından, jurnalist əsas diqqəti fakt və hadisələrin ədalətli təqdimatına yönəltməlidir. Bir sıra Avropa ölkələri qanunvericiliyində televiziya proqramlarının məzmununa dair tələblərə riayət etmək üçün müvafiq normalar tətbiq olunur. [8] Məsələn, Böyük Britaniyada özəl teleradio şirkətlərindən informasiya yayımının qərəzsizliyinin təminatını tələb edən norma qüvvədədir.

## III. MEDİA TƏHSİLİ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ÜÇÜN MÜHÜM FAKTOR KİMİ

Media təhsili KİV-in zərərli təsirlərindən müdafiə aləti kimi meydana çıxıb. Bu paradiqmadan ilk dəfə 1930-cu illərdə Böyük Britaniya istifadə etməyə başlayıb. *Media savadı* jurnalist təhsilinin nəticəsi kimi xarakterizə olunur. Kanada, Böyük Britaniya və Avstraliyada media savadı humanitar fənlər kompleksində xüsusi kurs kimi tədris olunur. [4] Böyük Britaniyada media təhsilinin müxtəlif problemləri ilə məşğul olan bir neçə təşkilat fəaliyyət göstərir. *UNESCO*-nun sənədlərində media təhsili belə xarakterizə olunur:

- media vasitələrinə dair anlayışları mənimsəmək, onlardan istifadə bacarıqlarına yiyələnmək;
- cəmiyyətə media mətnlərini hazırlamaq, analiz etmək və mətnlərə tənqidi yanaşma üsullarını aşılamaq;
- media mətnlərinin mənbələri, onların siyasi, sosial, kommersiya və mədəni aspektlərini müəyyənləşdirmək;
- media vasitələrinin aşıladığı dəyərləri və təqdim etdiyi məlumatları şərh etməyə imkan vermək.

Media təhsili bütün dünyada əsas vətəndaşın hüquqlarının bir hissəsidir. Cəmiyyətin media savadının səviyyəsi informasiya təhlükəsizliyinin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

## IV. MEDİA VƏ CƏMİYYƏT DÜNYA TƏCRÜBƏSİNDƏ

KİV təkcə gənc nəslə yox bütün əhali təbəqələrinə təsir gücünə malikdir. Medianın cəmiyyətin həyatında rolu haqqında danışarkən tez-tez "şüurun idarə olunması" ifadəsi istifadə edilir. Total informasiyalaşdırma bu gün müasir sivilizasiyanın ən mühüm xüsusiyyətidir. "Kim informasiyaya sahibdirsə, hakimiyyət onundur" tezisi informasiya cəmiyyətində daha da aktualdır. Qloballaşan dünyada elm və texnikanın sürətli inkişafı nəticəsində baş verən ən son hadisələr haqqında baş verdiyi anda xəbər tuta bilirik.

Texnologiyalar sahəsində dünyanın ən inkişaf etmiş ölkələrində əhalinin 83%-i İnternetə mobil telefonlar, planşetlər və digər müasir kommunikasiya vasitələrilə daxil olur ki, onların da əksəriyyəti gənclərdir. Cəmi 4 il əvvəl isə dünya

İnternet istifadəçilərinin 80%-i qlobal şəbəkəyə daxil olmaq üçün kompüter və noutbuklardan istifadə edirdilər. [7]

Kompüter texnikasının sürətlə inkişaf etdiyi bir dövrdə multimedia məhsullarının əlyetərliliyi daha da artmışdır. Azyaşlılar öz sağlamlığı və psixi inkişafları üçün təhlükəli olan müxtəlif saytlara sərbəst şəkildə müraciət edirlər. Uşaqlar tamamilə nəzarətsiz şəkildə ucuz və keyfiyyətsiz məlumatlar əldə edirlər ki, bu da informasiya sahəsinin idarə olunmamasının mənfi nəticələridir [6].

Tədqiqatlar göstərir ki, son illər televiziya proqramları aqressiv davranışlara səbəb olur. Bu, əsasən 21-23 yaşlar arası gənc oğlanlarda müşahidə olunur. Artıq yeniyetmələrin 78%-i mobil telefonlardan istifadə edir və demək olar ki, onların yarısı (47%) smartfonlara sahibdir. Müqayisə üçün qeyd edək ki, 2011-ci ildə bu rəqəm cəmi 23% idi. Mobil İnternetdən istifadə hallarının genişlənməsi gənclərin informasiya əldə etmə üsullarını asanlaşdırmaqla yanaşı, övladlarının İnternetdən istifadəsinə nəzarət etmək istəyən valideyinlər üçün də yeni problemlərin yaranmasına səbəb olur. [5]

Araşdırmalar göstərir ki, 1950-ci ildə Amerika Birləşmiş Ştatlarında (ABŞ) ailələrin cəmi 10%-də televizor var idi. 1960-ci ildə bu rəqəm 90 faizə çatmışdı. Bu gün isə Amerika ailələrinin 99 faizində televizor var. Artıq ABŞ gənclərinin yarısının öz yataq otağlarında televizoru var. Uşaqların 60 faizi televizoru ailəsiylə deyil, tək və ya dostlarıyla izləyir. Media real həyatla virtual həyat anlayışlarını hələ ayırd etmək qabiliyyətində olmayan 8 yaşdan aşağı uşaqlara daha çox mənfi təsir göstərir. [2]

Harvard Universitetinin apardığı araşdırmaların nəticəsində məlum olmuşdur ki, amerikalı yeniyetmələr arasında smartfonlardan istifadə, mobil telefonlardan istifadəni geridə qoymuşdur. Hər 4-cü yeniyetmə İnternetə daxil olmaq üçün kompüter və ya noutbukdan deyil, məhz mobil telefonlar və smartfonlardan istifadə edir.

KİV insanların fiziki və psixoloji vəziyyətlərinə mənfi təsir göstərməklə yeniyetmələrin sağlam həyat tərzi keçirmələri və onların qidalanmasında baş verən dəyişikliklərə görə də məsuliyyət daşıyır. Qeyri-sağlam qida məhsullarının media vasitəsilə reklamı buna misaldır. Yaxud gecə saatlarında televverlişləri izləmək və ya İnternetdə vaxt keçirmək bir çoxlarında yuxu pozğunluğuna səbəb olur.

Saatlarla kompüter və ya televizor qarşısında vaxt keçirən insanların görmə ilə bağlı narahatlıqları yaranır. Fiziki fəallığın çatışmazlığı isə artıq çəki ilə bağlı problemlərə gətirib çıxarır. Məlum olub ki, yeniyetmə gənclər məşhur artistlər haqqında proqramları izlədikdən sonra, öz bədən formalarından narazı qalırlar. Bu da onları ac qalmaqla özlərini arıqlatmağa məcbur edir.

## V. MEDİANIN MÜSBƏT VƏ MƏNFİ TƏSİRLƏRİ

Tədqiqatların nəticələri KİV-in aşağıdakı müsbət və mənfi təsirlərinin müəyyənləşməyə imkan verir.

**Medianın müsbət təsirləri:**

- KİV ictimaiyyəti məlumatlandırır, insanlara informasiya mübadiləsi aparmağa kömək edir, həmçinin, ayrı-ayrı şəxslərin "gizli" istedadlarının aşkara çıxmasına şərait yaradır ;
- KİV-in təqdim etdiyi məlumatlar gündəlik həyatda insanların köməyinə çatır;
- Azyaşlılar mətbuatı oxuyarkən, oxuma vərdişlərini formalaşdırır və yeni sözlərlə leksikonlarını zənginləşdirirlər;
- Cizgi film kanalları və əyləncə xarakterli video oyunlar uşaqların özlərini qayğısız hiss etmələrinə səbəb olur;
- Media insanların cəmiyyətin həyatında iştirakını daha da gücləndirir, intellektual səviyyəni və dünya görüşünü artırır;
- Yeni media insanların ünsiyyət imkanlarını genişləndirir və onları ictima-siyasi problemlərin həlli ətrafında birləşməyə sövq edir.

**Medianın mənfi təsirləri:**

- Dezinformasiyalar (yalan məlumatlar) insanların sağlamlığında problem yaratmaqla yanaşı, KİV ilə bağlı inamsızlığa səbəb olur;
- Azyaşlıların izlədiyi super qəhrəman obrazları onların daha inadkar davranışlarına şərait yaradır və gələcəkləri üçün təhlükələrə yol açır ;
- Dəb və musiqi proqramları, əyləncəli verilişlər gənclərin diqqətini cəlb edir, onları geyim və zinət əşyalarına daha çox pul xərcləməyə vadar edir;
- Uşaqların İnternetdə saatlarla vaxt keçirməsi, kompüter oyunları oynaması onların real həyatda iştiraklarını məhdudlaşdırır;
- Fiziki işlə az məşğul olmaq gənclərdə ətalətə və tənbəlliyə gətirib çıxarır.

Bütün bu səbəblər insanlardan, xüsusən medianın mənfi təsirlərinə daha çox məruz qalan gənclərdən ayıq davranmağı, bu təsirləri minimallaşdırmaq üçün özlərinə və ətrafdakı insanlara qarşı məsuliyyətli olmağı tələb edir.

## NƏTİCƏ

Aparılan araşdırma bu gün medianın insanların həyatına nə dərəcədə yaxından nüfuz etdiyini bir daha sübut edir. KİV ictimai düşüncəyə və insanların seçiminə birbaşa təsir göstərir. Hazırda bütün dünyada medianın müsbət təsirlərindən yararlanmaq və onları sağlam məqsədlər üçün istifadə etmək media mütəxəssislərinin əsas hədəflərindəndir. Media və ictimaiyyət KİV-in mənfi təsirlərini azaltmaq üçün birgə çalışmalıdır [3].

## ƏDƏBİYYAT

[1] Marshall Sponder – Social Media Analytics: Effective Tools for Building, Intrepreting, and using metrics
[2] http://www.unicef.org/
[3] The effects of media violence, thesis, 2012.
[4] http://ru.wikipedia.org/wiki
[5] Negative Influences of Media on the Society, http://influence.bafree.net
[6] Understanding the Impact of Media on Children and Teens, http://www.studymode.com
[7] Роль СМИ в жизни общества, http://vozrojdenie.info
[8] http://www.sas.com/software/customer-intelligence/social-media-analytics/